# Azərbaycan COP29-a nümunəvi hazırlaşıb

**Azərbaycanın evsahibliyi ilə BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı davam edir. Digər beynəlxalq əhəmiyyətli tədbirlərə uğurla evsahibliyi etmiş Bakı bu dəfə də qonaqları layiqincə qarşılayır, konfransın keçirilməsində özünəməxsus nümunə yaradır.**



Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, Azərbaycanın COP29-a hazırlığı nümunəvidir. Yalnız yerli deyil, beynəlxalq qiymətləndirmə də göstərir ki, Azərbaycan həm sistemli, həm ünvanlı şəkildə konfransa hazırlıq həyata keçirib. Konfrans iqlim dəyişiklikləri ilə bağlı olsa da, ölkəmiz üçün bir sıra iqtisadi dividendlər gətirəcək. COP29 həm iştirakçılıq səviyyəsinə, həm də statusuna görə dünyanın ikinci ən böyük tədbiri hesab olunur. İştirakçılıq səviyyəsinə görə qlobal baxımdan ciddi rəqabət aparıla bilinəcək tədbirdir. Nəzərə alsaq ki, 70 mindən artıq iştirakçı olur, bu da ondan xəbər verir ki, tədbirin keçirildiyi günlər ərzində kifayət qədər nümayəndə heyəti ölkəyə səfər edəcək", - deyə o bildirib.

Deputat vurğulayıb ki, bu, turizm və xidmət sektorunun inkişafı baxımından da vacibdir. Turizm üçün bu müddət yalnız gəlirlərin artması deyil, həm də potensial olaraq gəlirin yüksəlməsinə xidmət edir. Çünki tədbir növbəti mərhələdə də ölkəyə daha çox turistin gəlməsinə təkan verəcək. COP29, eyni zamanda Azərbaycanın potensialının təqdim olunması baxımından da əhəmiyyətlidir.

V.Bayramov bildirib ki, COP29 sayəsində Azərbaycana daha çox sərmayələr cəlb olunacaq: "Xüsusən cənab Prezident tərəfindən yeni dövrün yeni tələblərinə uyğun olaraq qeyri-neft sektoruna xarici investisiyanın cəlb olunması prioritetlərdən biri kimi müəyyənləşdirilib. Bu baxımdan COP29 enerjidən kənar sektorlara sərmayənin cəlb edilməsinə töhfə verəcək. Digər vacib məqamlardan biri də COP29-dan sonra qarşılıqlı və birtərəfli müqavilələrin, anlaşmaların və birgə layihələrin həyata keçirilməsi ilə bağlıdır. Nəticə etibarilə konfrans fərqli ölkələr və şirkətlərlə daha çox layihələrin reallaşmasına və investisiya layihələrinin birgə fəaliyyətinin həyata keçirilməsinə zəmin yaradacaq. Ona görə də COP29 Azərbaycan üçün həm də iqtisadi dividendlərə malik tədbirdir".

Deputat qeyd edib ki, COP bütövlükdə qeyri-neft sektorunun inkişafını stimullaşdıran tədbir hesab olunur.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 noyabr (№ 250).- S.13.